# Ailənin rifahı, qadın və uşaqların hüquqları dövlət tərəfindən yüksək qorunur



Fevralın 5-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 10 illik fəaliyyətinə həsr olunmuş "Azərbaycanda ailə, qadın və uşaq siyasətinin inkişafı: 2006-2016-cı illər" mövzusunda konfrans keçirilib. Bir sıra əməkdaşları müxtəlif fəxri adlarla təltif etdiyinə görə kollektiv adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən komitə sədri Hicran Hüseynova vurğulayıb ki, bu, bütövlükdə dövlət ailə, qadın və uşaq siyasətinə, onun həyata keçirilməsinə və komitənin fəaliyyətinə verilən yüksək qiymətin nümunəsidir. O qeyd edib ki, Azərbaycan hökuməti ailələrin rifahını, qadın və uşaqların hüquqlarının qorunmasını daim nəzərində saxlayır, bu isə ölkəmizin daha da güclənməsinə gətirib çıxarır.

Məlumat verilib ki, keçən müddət ərzində komitənin nəzdində fəaliyyət göstərən 11 uşaq və ailələrə dəstək mərkəzinin xətti ilə 57 mindən çox vətəndaşa psixoloji, hüquqi və tibbi yardım olunub. 2008-ci ildən etibarən keçirilən "Ailə bayramı"nda Azərbaycanın bütün rayonlarından 100-ə yaxın ailə iştirak edir. 2009-cu ildən başlayaraq komitə tərəfindən Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə "Azərbaycan ailəsi" adlı film festivalı uğurla həyata keçirilir. Məişət zorakılığı halları ilə əlaqədar sistematik məlumatın toplanılmasına başlanılıb.

Bu gün aktual məsələlərdən biri də kənd və rayonlarda yaşayan qadınların fəallığının artırılmasıdır. Bu məqsədlə komitə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə ikiillik "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım layihəsi həyata keçirir. Artıq Sabirabad, Neftçala və Masallıda qadın resurs mərkəzləri yaradılıb. Xüsusilə aztəminatlı, əlil, qaçqın və məcburi köçkün qadınların sahibkarlıqla məşğul olmasında belə layihələr mühüm əhəmiyyətə malikdir. Son illərdə paytaxtda və regionlarda qadınların sahib olduğu müəssisələrin sayının artdığı müşahidə olunur. Qadın sahibkarlığın inkişafı yoxsulluğun azaldılmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda, cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir.

Tədbirdə ailə, qadın və uşaq siyasətini və komitənin 10 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

***AZƏRTAC***